# AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ 60 İLLİK YUBİLEYİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2005-ci il martın 27-də Azərbaycan Milli Elmlər Akademiyasının yaradılmasının 60 ili tamam olur. Bu dövr ərzində Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycanda fundamental və tətbiqi elmin mərkəzinə çevrilmişdir.

Azərbaycan Milli Elmlər Akademiyasının alimləri riyaziyyat, fizika, kimya, geologiya, biologiya, neft emalı, neft-qaz mədən geologiyası və geofizikası, eləcə də bu elmlərlə bağlı sənaye sahələrinin problemlərinin həlli, karbohidrogen yataqlarının işlənməsi, bioresursların qorunması və səmərəli istifadəsi sahələrində böyük uğurlar qazanmışlar. Azərbaycan tarixinə, mədəniyyətinə, dili və ədəbiyyatına, ictimai-fəlsəfi fikrinə aid tədqiqatlar elmi ictimaiyyət tərəfindən daim yüksək qiymətləndirilmişdir. Bir çox sahələrdə alimlərimizin əldə etdiyi nəticələr elm aləmində öz layiqli yerini tutmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyasının ölkəmizin iqtisadi, sosial və mədəni inkişafında, elmi kadrların hazırlanmasında rolunu və yaradılmasının 60 illiyini nəzərə alaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Milli Elmlər Akademiyasının 60 illik yubileyi münasibətilə tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 14 fevral 2005-ci il
№ 633